BİRLİK ЕДИНСТВО

QƏZET 2002-Cİ İLİN AVQUST AYINDAN ÇIXIR
ГАЗЕТА ВЫХОДИТ С АВГУСТА 2002 ГОДА

13 SENTYABR 2019 - CU İL
13 СЕНТЯБРЯ 2019 ГОДА
№ 17 (434)

DAĞ YƏHUDİLƏRİ STMEGİ BEYNƏLXALQ XEYRİYYƏ FONDUNUN İCTİMAİ - SİYASİ QƏZETİ
ОБЩЕСТВЕННО - ПОЛИТИЧЕСКАЯ ГАЗЕТА МЕЖДУНАРОДНОГО БЛАГОТВОРИТЕЛЬНОГО ФОНДА ГОРСКИХ ЕВРЕЕВ СТМЭГИ

İNTERNETDƏ ÜNVANIMIZ WWW.STMEGİ.COM НАШ АДРЕС В ИНТЕРНЕТЕ

НАШИ ЧИТАТЕЛИ В МОСКВЕ ПО ПОВОДУ ПРИОБРЕТЕНИЯ ГАЗЕТЫ МОГУТ ОБРАЩАТЬСЯ С 10 ДО 18 ЧАСОВ ПО ТЕЛЕФОНУ (8 919) 770 44 77

PREZİDENT İLHAM ƏLİYEV BAKININ SURAXANI RAYONUNDAKI 101 NÖMRƏLİ MƏKTƏBDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLUB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Bakının Suraxanı rayonundakı 101 nömrəli orta məktəbdə aparılan təmir-tikinti və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub.

Qeyd edək ki, Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı qəbul edilən xüsusi Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq bütün sosial sahələrdə olduğu kimi, təhsil müəssisələrinin əsaslı şəkildə yenidən qurulması, yeni məktəb binalarının, uşaq bağçalarının inşası prosesi də məqsədyönlü şəkildə uğurla həyata keçirilir. Paytaxt və ətraf qəsəbələrlə yanaşı, respublikanın hər yerində orta məktəb binaları yüksək standartlara uyğun şəkildə yenidən qurulur, lazımi avadanlıqla təchiz edilir, təhsil müəssisələrinin ərazilərində abadlıq işləri həyata keçirilir. Təhsil sahəsində görülən bütün bu işlər Azərbaycanda insan kapitalının daha da inkişaf etdirilməsi məqsədinə xidmət edir.

AzərTAc xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov və məktəbin direktoru Səidə Məmmədova görülən işlərlə bağlı dövlətimizin başçısına ətraflı məlumat verdilər.

Bildirildi ki, 101 nömrəli tam orta məktəbin binası 1937-ci ildə tikilib. O zaman 400 şagird yerlik üçmərtəbəli korpus istifadəyə verilib. 1960-cı ildə isə 4 sinifdən ibarət yardımçı korpus tikilib. 2012-2013-cü illərdə 20 sinif otağından ibarət əlavə 400 yerlik bina istifadəyə verilib. Bakı və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı Dövlət Proqramına əsasən bu ilin may ayında təhsil ocağının 1937-ci ildə istifadəyə verilən binası sökülərək yerində 360 yerlik 15 sinif otağından ibarət əlavə korpusunun tikintisinə başlanıb. İnşaat işləri yüksək səviyyədə həyata keçirilib. Bundan sonra məktəbdə birnövbəli sistemdə 985 şagird təhsil alacaq. Şagirdlərin təlim-tərbiyəsi ilə 62 müəllim məşğul olur.

Diqqətə çatdırıldı ki, məktəbdə 35 sinif otağı, informatika kabineti, laboratoriya, idman və akt zalları, hərbi otaq və yeməkxana var. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları zəruri dərs vəsaitləri ilə təchiz edilib. Məktəbdə internet, mebel-inventar və digər zəruri avadanlıqlar müasir tələblər səviyyəsindədir.

Məlumat verildi ki, məktəbin şagird və məzunları müxtəlif beynəlxalq bilik və idman yarışlarında, olimpiadalarda mühüm uğurlara imza atıblar. Bu təhsil ocağının məzunları ali məktəbə qəbul imtahanlarında yüksək nəticələri ilə seçilirlər. 2019-cu ilin statistikasına görə, məktəbi bitirən məzunların 80 faizi tələbə adını qazanıb.

Məktəbin həyətində geniş abadlıq və quruculuq işləri görülüb. Həyətdə futbol və voleybol meydançaları yaradılıb.

Dövlətimizin başçısı İlham Əliyev məktəbin direktoru Səidə Məmmədova ilə söhbət etdi.

Prezident İlham Əliyev: Açıq futbol meydançası da var. Gözəl şərait yaradılıb. Sizi təbrik edirəm.

Səidə Məmmədova: Mən Sizə və Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevaya təşəkkür edirəm. Bizim üçün belə bir müasir məktəb tikdirmisiz. Sağ olun, var olun.

Prezident İlham Əliyev: Sağ olun.

ЗАРАХУ БЕНСИОНОВИЧУ ИЛИЕВУ

Нашему соотечественнику, известному бизнесмену и меценату, председателю совета директоров ОАО «Площадь Европы», одному из лидеров российской общины горских евреев Зараху Илиеву исполнилось 53 года.

Дорогой Зарах Бенсионович!

От себя лично и от имени фонда СТМЭГИ горячо и искренне поздравляю Вас с днем рождения! Мне невероятно повезло иметь такого делового партнера и друга. Ваши мудрость, обаяние, удивительная работоспособность и ответственное отношение к любому делу - бесценный пример для всех нас! Пусть надежным фундаментом для новых достижений станут Ваши деловые качества: талант руководителя, доверие и поддержка коллег, партнеров, верность друзей. Вся община горских евреев знает Вас как подлинного лидера и щедрого мецената, не жалеющего сил и средств на нужды соплеменников. Примите в этот яркий осенний день самые искренние пожелания крепкого здоровья и благополучия. Желаю новых побед, неиссякаемой энергии и вдохновения, успехов на всех направлениях!

Герман ЗАХАРЬЯЕВ,
президент Международного благотворительного фонда СТМЭГИ

GƏNCLƏR MƏRKƏZİNDƏ TƏLƏBƏLƏRLƏ GÖRÜŞ

Sentyabrın 11-də Quba Gənclər Mərkəzində 2018-2019-cu dərs ilini müvəffəqiyyətlə başa vurub ölkəmizin ali məktəblərinə qəbul olunmuş məzunlarla görüş keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan rayon İcra Hakimiyyəti başçısının müavini Səidə Abasova tələbə adını qazanmış məzunları təbrik etmiş, onlara biliklərə səylə yiyələnməyi, bağlar diyarı Qubanın adını oxuduqları ali təhsil ocağında daim uca tutmağı və Vətənə layiq övlad kimi yetişmələrini arzulamışdır.

Görüşdə çıxış edərək ali məktəbə qəbul olunmuş gəncləri təbrik edən rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev qeyd etmişdir ki, ümummilli lider Heydər Əliyev gənclərin təhsilə yiyələnməsini həmişə öz siyasətinin əsas tərkib hissələrindən biri hesab etmiş, 1969-1982-ci illərdə respublikamıza rəhbərlik etdiyi dövrlərdə yüzlərlə yeni tədris ocaqları, gənclər mərkəzləri, hərbi məktəblər açılmış, minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilmişdir. Azərbaycan gənclərinin Birinci Forumunda bu barədə danışan ulu öndər demişdir: “Bütün bunların hamısı o vaxtlar Azərbaycanın gələcəyi üçün yeni-yeni mütəxəssislər hazırlamaq məqsədi daşımışdır. Bu işə biz hələ 70-ci ildən başlamışdıq. Mən bu gün çox məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu, şəxsən mənim təşəbbüsümlə olmuşdur. Mən hələ o vaxtdan ölkəmizin gələcəyini düşünürdüm”. Bu gün Azərbaycan dövləti sürətli inkişaf dövrünü yaşayır və bu inkişaf təbii ki, gənclər üçün yeni imkanlar açır. Gəncliyin inkişafı, yüksək intellektli, vətənpərvər gəncliyin yetişməsi üçün çox əhəmiyyətli layihələr həyata keçirilir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən siyasətin başlıca istiqamətlərindən biri gənclərə dövlət dəstəyinin gücləndirilməsindən, onlara hərtərəfli diqqət göstərilməsindən ibarətdir. Rayonumuzda da təhsil sahəsində son illərdə bir sıra uğurlar əldə olunmuşdur. 2004-cü ildən başlayaraq rayonda 66 məktəb binası tikilmiş, 13 məktəb binası isə əsaslı təmir olunmuşdur. Təhsil müəssisələrimizin maddi-texniki bazası xeyli gücləndirilmiş, informasiya texnologiyalarının tətbiqi sahəsində mühüm irəliləyişlər əldə olunmuşdur. Bu il ali məktəblərə qəbul imtahanlarında 1057 nəfər qubalı abituriyent iştirak etmişdir ki, onlardan da 525 nəfəri tələbə adını qazanmışdır. Tələbə adını qazananların 458 nəfəri rayonun tam orta məktəblərinin bu ilki məzunları, 67 nəfəri isə əvvəlki illərin məzunları olmuşdur. Bu ilki məzunlarımızdan ali məktəblərə qəbul üçün 865 nəfər sənəd vermiş və qəbul göstəricisi 53 faiz təşkil etmişdir. Nəzərinizə çatdırım ki, cari tədris ilini 3 nəfər gümüş medalla başa vurmuşdur. Rayon məktəbləri üzrə qəbul imtahanlarında 69 nəfər məzunumuz 500-dən, 14 nəfər məzunumuz isə 600-dən artıq bal toplamışlar. Artıq yeni, 2019-2020-ci tədris ilinin astanasındayıq. Yeni tədris ili ərəfəsində rayonumuzun bütün təhsil ictimaiyyətini, məktəblilərimizi, tələbə adı qazanmış məzunlarımızı, eləcə də beynəlxalq yarışlarda uğur qazanmış idmançılarımızı qarşıdan gələn yeni dərs ili münasibətilə ürəkdən təbrik edirəm, sizlərin hər birinizə möhkəm can sağlığı, yeni-yeni uğurlar diləyirəm.

Görüşdə şəhər 1 nömrəli orta məktəbin müəllimi Anar Hüseynov, Birinci Nügədi kənd orta məktəbin məzunu, Xarici Dillər İnstitunun İngilis dili fakültəsinin tələbəsi Nəzrin Nəcəfova və şəhər 2 nömrəli təbiət təmayüllü orta məktəbin məzunu. İqtisad Üniversitetinin tələbəsi Əli Əliyev çıxış etdilər. Onlar respublikamızda gənclərin təhsil alması üçün yaradılmış gözəl və əlverişli şəraitə görə ölkə Prezidenti İlham Əliyevə minnətdarlıqlarını bildirdilər.

Daha sonra rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev 600-dən artıq bal toplayıb ali məktəblərə daxil olan məzunlara hədiyyələr təqdim etdi.

Təhminə ABDULOVA,
Fərid SƏFƏROV (foto)

TƏHSİL İŞÇİLƏRİNİN REGİONAL KONFRANSI

Sentyabrın 2-də Quba Heydər Əliyev Mərkəzində təhsil işçilərinin illik regional konfransı keçirilib. Konfransda Quba, Xaçmaz, Qusar rayonlarının təhsil şöbələrinin məsul işçiləri və məktəb direktorları iştirak ediblər.

Tədbirdən əvvəl konfrans iştirakçıları ulu öndər Heydər Əliyevin xatirəsini yad edərək, abidəsi önünə tər çiçəklər qoyublar.

Konfransda çıxış edən Quba Rayon İcra Hakimiyyəti başçısının müavini Səidə Abasova təhsil işçilərinə yeni dərs ilində uğurlar arzulayıb və konfransın rayonumuzda keçirilməsinə görə Təhsil Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib.

O qeyd edib ki, məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ölkəmizdə milli təhsil konsepsiyası işlənib hazırlanmış, onun uğurla həyata keçirilməsi təmin edilmişdir. Azərbaycan təhsilinin son yarım əsrdə qazandığı böyük uğurlar məhz ulu öndərin adı ilə bağlıdır. Ölkəmizdə təhsil möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən yeni dövrün reallıqlarına uyğun olaraq davam və inkişaf etdirilir. Son 16 ildə Azərbaycanda həm dövlət, həm də Heydər Əliyev Fondunun xətti ilə üç mindən çox məktəb binası tikilmiş və əsaslı təmir olunmuşdur. Quba rayonunda da təhsil sahəsində son illərdə bir sıra uğurlar əldə olunmuşdur. 2004-cü ildən başlayaraq rayonda 66 məktəb binası tikilmiş, 13 məktəb binası isə əsaslı təmir olunmuşdur. Təhsil müəssisələrimizin maddi - texniki bazası xeyli gücləndirilmiş, informasiya texnologiyalarının tətbiqi sahəsində mühüm irəliləyişlər əldə olunmuşdur.

Konfransda Quba, Xaçmaz və Qusar rayonlarının Təhsil Şöbələrinin müdirləri Rüfət Hacıyev, Mədinə Nurməmmədova və Niftəli Fərzəliyev çıxış edərək 2018-2019-cu tədris ilində görülən işləri və problemləri diqqətə çatdırmışlar.

Bugünkü nömrəmizdə * В сегодняшнем номере:

НАШИ СООТЕЧЕСТВЕННИКИ СОЗДАЮТ В АЗЕРБАЙДЖАНЕ ПЕРВЫЙ В МИРЕ МУЗЕЙ ГОРСКИХ ЕВРЕЕВ — стр. 2

AZƏRTAC VƏ İSRAİLİN TAZPİT AGENTLİYİ ƏMƏKDAŞLIQ BARƏDƏ ANLAŞMA MEMORANDUMU İMZALAYIBLAR — səh. 3

В МОСКВЕ ОТКРЫЛАСЬ ВЫСТАВКА ХУДОЖНИЦЫ НАТАЛЬИ ШЕВЧЕНКО — стр. 4

ПРЕДАННОСТЬ РОДИНЕ

НАШИ СООТЕЧЕСТВЕННИКИ СОЗДАЮТ В АЗЕРБАЙДЖАНЕ ПЕРВЫЙ В МИРЕ МУЗЕЙ ГОРСКИХ ЕВРЕЕВ

Российские бизнесмены Год Нисанов, Зарах Илиев и Герман Захарьяев создают первый в мире музей горских евреев в Азербайджане. Как сообщает АзерТАдж первый в мире музей горских евреев готовится к открытию в Азербайджане в поселке Красная Слобода Губинского района.

Идеологами и инвесторами культурологического проекта выступили московские девелоперы, владельцы группы компаний "Киевская площадь" Год Нисанов, Зарах Илиев и президент Международного благотворительного фонда СТМЭГИ Герман Захарьяев. Меценаты - сами уроженцы Красной Слободы и, несмотря на то, что давно живут и работают в России, о своей малой родине не забывают и оказывают поселению всестороннюю помощь.

Идея создать музей, в котором будут собраны предметы быта, национальная одежда, книги, где будут храниться история и традиции горско-еврейской общины, возникла несколько лет назад. В 2016 году приступили к ее воплощению. Символично, что зданием музея выбрана одна из семи сохранившихся в поселке синагог - Карчагская, служившая в советские времена продуктовым складом. Инвесторы приняли решение, что главным экспонатом должно стать само здание синагоги, восстановленное по первоначальным эскизам и из материалов самой синагоги.

Наполняемостью музея занимается Фонд СТМЭГИ, крупнейшая в мире организация, объединяющая горских евреев. Фонд еще на этапе разработки проекта обратился к диаспорам и общинам с призывом помочь в поиске старинных предметов. Фонд также взял на себя художественное оформление музея.

Среди первых уникальных экспонатов здесь появился талид XIX века. Это молитвенное покрывало, образ которого использован в создании флага Израиля. Талиды использовались и как свадебные балдахины. Еще один предмет, привлекающий к себе внимание, - конный экипаж того же времени. Кроме того, в музее будет представлено большое количество различных книг и документов, таких например, как ктуба - ритуальный брачный договор. Многие старинные издания представлены на исчезающем джуури, смеси фарси с заимствованиями из семитского и тюркского языков. Год Нисанов, Зарах Илиев и Герман Захарьяев надеются, что собранные в одном месте книги помогут дальнейшему сохранению языка и изучению уникального диалекта, на котором говорят горские евреи.

Красная Слобода - само по себе уникальное место, привлекающее туристов. До 1926 года поселок в 168 километрах от Баку назывался Еврейской Слободой. До сих пор он является единственным на постсоветском пространстве местом компактного проживания горских евреев. При этом в Азербайджане таких национальных общин еще две - ашкенази и грузинские евреи. Многие эксперты отмечают, что только евреи Азербайджана сумели сохранить свою идентичность, никогда не знали гонений, не проходили через погромы и антисемитизм. Национальное большинство этого государства всегда подчеркивало свой мультикультурализм и толерантность - не зря столицу страны, Баку, называют "интернациональным городом".

Побывавший в конце прошлого года в Красной Слободе драматург и брат премьер-министра Израиля Идо Нетаньяху особо отметил, как бережно в стране относятся к сохранению древнейших традиций. "Очень ценю внимание и заботливое отношение руководства Азербайджана к еврейской общине, что может быть образцом диалога и взаимопонимания в мире", - сказал Идо Нетаньяху, посетив местные синагоги и строящийся музей. Именно синагоги некогда составляли архитектурную основу поселка: из 13 до наших времен в разном состоянии сохранилось только 7, но в Красной Слободе надеются когда-нибудь восстановить их все.

Еще одна гордость поселка - это его жители. Горские евреи здесь веками живут в дружбе и согласии.

В частности, здесь до сих пор говорят на джуури, языке первых на Кавказе переселенцев из Персии. Причем уроженцы Красной Слободы - горские евреи прекрасно знают и азербайджанский, и русский, но, приходя на кладбище почтить память родных и близких, разговаривают исключительно на джуури.

Таинство единения с земляками не дает никому забыть о своих истоках. Судьба разбросала горских евреев по всему миру, но на все важные события они съезжаются в Красную Слободу.

YENİ DƏRS İLİ QARŞISINDA

RÜFƏT HACIYEV: CARİ DƏRS İLİNƏ YENİ İSTEDADLAR ÜZƏ ÇIXARMAQ ƏZMİ İLƏ QƏDƏM QOYURUQ

2018-2019-cu dərs ili hansı uğurlarla yadda qalıb? Qarşıdakı dərs ilində rayonumuzun təhsil işçiləri qarşısında nə kimi vəzifələr durur? Suallarımızı rayon Təhsil Şöbəsinin müdiri Rüfət Hacıyev belə cavablandırmışdır.

Son illərdə təhsilin inkişafı ilə bağlı qəbul olunan proqramlar nəticəsində dövlət büdcəsindən təhsilə ayrılan xərclər əhəmiyyətli şəkildə artmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqət və qayğısı, Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə Quba rayonunda da ümumtəhsil müəssisələrinin infrastrukturunun müasirləşdirilməsi istiqamətində əhəmiyyətli işlər görülmüş, tikilmiş məktəb binalarının sayı 66-ya çatmışdır. 2018-2019-cu dərs ilini Rayonumuzun pedoqoji kollektivləri uğurla yekunlaşdırmışdır.

Yeni dərs ili ərəfəsində rayonun 8 kəndində - Nütəhdə 20, Cimidə 80, Dərkdə 40, Rükdə 56, Alıcda 40, Çarxacuda 56, Qarxunda 56, Zıxırda 80 şagird yerlik, bir ibtidai, bir tam orta, altı ümumi orta məktəb olmaqla səkkiz modul tipli məktəb quraşdırılaraq istifadəyə verilmişdir. Hazırda Küpçalqışlaq, Susayqışlaq, Qıraqlı-Cəkli, Ərməkiqışlaq və Yalavanc kəndlərində daha beş yeni modul tipli məktəbin quraşdırılması davam edir.

Ölkə Prezidenti İlham Əliyevin Sərəncamı ilə, Alekseyevka kəndində tikilən 960 şagird yerlik, Heydər Əliyev Fondunun xətti ilə Birinci Nügədi kəndində inşa olunan 792 yerlik tam orta məktəb binalarının bu tədris ili ərzində şagirdlərin ixtiyarına verilməsi nəzərdə tutulmuşdur. Zərdabi qəsəbəsində də köhnə məktəb binası sökülərək yenidən tikiləcəkdir.

Bununla belə, rayon məktəblərinin maddi-texniki bazasında çatışmazlıqlar hələ də vardır. Vəlvələ, Alıc-Digah, Künxırt, Haput, Xaspolad, Küçeyi, İkinci Nügədi 2 nömrəli və Pirvahid məktəblərinin binaları təlimə yararsız, vəziyyətdədir. Digah, Qam-qam, Çiçi, Alpan, Bağbanlı, Amsarqışlaq, Hacıhüseynli, Rustov, Vladimirovka, Zərdabi, Barlı məktəblərinin əsaslı təmirə ciddi ehtiyacı vardır.

Yeni tikilib istifadəyə verilmiş məktəblər kompüter texnikası və avadanlıqla Təhsil Nazirliyi tərəfindən birbaşa təmin edilir. 2018-2019-cu dərs ilində təhsil ocaqlarına 180 parta, 20 markerli lövhə, 49 kompüter, 15 printer, 300 katric verilmişdir. Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev tərəfindən də məktəblərə 201 parta hədiyyə edilmişdir.

Rayonun 123 təhsil müəssisəsində 1379 kompüter quraşdırılmış, 29 məktəbdə 400-ə yaxın kompüter internetə qoşulmuşdur. Hazırda məktəblərimizdə 1473 kompüter var ki, bu da 17 şagirdə bir kompüterin düşməsi deməkdir. 54 məktəb internetlə təmin olunsa da 81 məktəbdə hələ də internet şəbəkəsi mövcud deyil. Təhsil Nazirliyi tərəfindən rayonun Hacıqayıb, İkinci Nügədi 1 nömrəli, Alekseyevka, Vladimirovka kənd tam orta və Çartəpə kənd ümumi orta məktəblərinə dəyəri təxminən 91.000 manat olan fizika və kimya laboratoriyaları verilmişdir. Ötən tədris ilində də Qaraçay, Qəçrəş kənd məktəbləri və Quba şəhər 2 nömrəli orta məktəb laboratoriya avadanlıqları ilə təhciz olunmuşdur.

2018-ci il ərzində müsabiqədə uğur qazanmış 89 nəfər müəllim rayonumuza təyinat almış və müxtəlif təhsil müəssisələrimizdə pedoqoji fəaliyyətə başlamışdır. Lakin ixtisaslı kadrlara olan tələbatımız hələ ki, tam ödənilməmişdir. Bu il müxtəlif ixtisaslardan olan 225 vakant müəllim vəzifəsi müsabiqəyə təqdim olunmuşdur. Məktəblərdə psixoloqlara da ehtiyac böyükdür.

Ötən dərs ilində 135 ümumtəhsil məktəbində 24192 şagird təhsil almış, məktəbəhazırlıq qruplarına isə 115 komplekt olmaqla 2003 nəfər 5 yaşlı uşaq cəlb olunmuşdur. Həkim nəzarət komissiyasının və rayon Təhsil Şöbəsi yanında psixoloji-tibbi-pedaqoji komissiyanın rəyi əsasında 2018-2019-cu dərs ilinin əvvəlində 185 şagird evdə təhsilə yönəldilmişdir. Ötən dərs ilinin yekunlarına görə ümumi orta təhsil üzrə 10, tam orta təhsil üzrə 19 şagird fərqlənmə attestatı almış, 3 şagird isə məktəbi gümüş medalla bitirmişdir. Məzunların ali məktəblərə qəbul imtahanlarının nəticələri də sevindirici olub. Belə ki, I-V qruplar üzrə Dövlət İmtahan Komissiyasına 1057 abituriyent sənəd vermişdir. Onlardan 852 nəfəri bu il məktəbi bitirən məzunlardır. 525 nəfər keçid balını toplayaraq ali məktəbələrə, 13 nəfəri xüsusi təyinatlı məktəblərə, 359 nəfəri isə orta ixtisas məktəblərinə qəbul olunmuşlar.

Rayon üzrə 14 nəfər 600-dən yuxarı, 55 nəfər isə 500-600 arasında bal toplamışdır. Ümumilikdə 69 nəfər şagirdimiz 500-dən yuxarı bal toplamışdır. Ötən illə müqayisədə ali məktəbə qəbul olunmuş abituriyentlərin sayı 40 nəfər çox olmuşdur. Bu il ən yüksək nəticə göstərmiş 3 nəfərin hər biri kənd məktəblərinin məzunlarıdır. Rayon üzrə ən yüksək göstəricini isə 657 balla Amsarqışlaq kənd tam orta məktəbinin məzunu Əli Kərimli əldə etmişdir.

Ötən dərs ilində rayonun 15 məktəbində müxtəlif istiqamətlər üzrə 486 şagirdi əhatə edən 23 təmayül sinfi təşkil olunmuşdur. 2019-2020-cu tədris ili üçün isə 380 şagirdi əhatə edəcək daha 18 təmayül sinfinin yaradılması nəzərdə tutulmuşdur.

Təhsil nazirinin istedadlı şagirdlər üçün xüsusi siniflərin təşkili barədə əmrinə əsasən Quba rayonunda VII sinif üzrə 25 şagirdi əhatə edən riyaziyyat və informatika təmayüllü, VIII siniflər üzrə isə 23 şagirdi əhatə edən təbiət təmayüllü xüsusi siniflər təşkil edilmişdir. Bu siniflərdə ən yüksək peşəkarlıq səviyyəsinə malik müəllimlərin dərs deməsi təmin olunmuşdur.

Ötən dərs ilində rayon məktəblərinin müxtəlif sahələrdə - idmanda, mədəniyyət və turizm festivallarında, bilik yarışmalarında, olimpiadalarda, inşa yazı müsabiqələrində qazandıqları uğurlar sevindiricidir.

Rayonumuzun pedaqoji kollektivləri yeni 2019-2020-ci dərs ilinə ötən il əldə olunan uğurları daha da möhkəmlətmək və yeni istedadlar üzə çıxarmaq əzmi ilə qədəm qoyurlar.

MARK SİMANDUYEV: MƏN UZUN İLLƏR QƏLBİMDƏ GƏZDİRDİYİM ARZUMA ÇATMIŞAM

Mark Simanduyevi qubalılar yaxşı tanıyırlar. İsaak Xanukov adına Qırmızı Qəsəbə 1 nömrəli orta məktəbdə oxuyan və dərs əlaçısı kimi tanınan bu məktəbli həm də Azərbaycan və Avropa bəstəkarlarının əsərlərinin bacarıqlı ifaçısı və isdedadlı skripkaçı kimi adsan qazanıb. Rayonumuzda elə bir təntənəli tədbir olmayıb ki, Mark Simanduyevi ifaçılıq tərzinə, bacarığına görə tamaşaçılar alqışlarla qarşılamasınlar. Novruz və Yeni il şənliklərində, şəhərimizdə keçirilən Alma bayramlarında Roş a - Şana və Xanuka təntənələrində Mark özünün musiqi duyumunu və istedadını nümayiş etdirməklə yanaşı tədbir iştirakçılarının rəğbətini qazanıb.

Bütün bunlarla yanaşı Markın illər boyu qəlbində gəzdirdiyi ən böyük arzusu çin olub. Qəsəbə 1 nömrəli orta məktəbində təhsilini uğurla başa vuran və ali məktəbə qəbul imtahanlarında 496 bal toplayan Mark Simanduyev bu günlərdə İ.M.Seçenov adına Moskva Tibb Universitetinin Bakı Filialının tələbəsi adına layiq görülüb.

Mark Simanduyev bizimlə söhbətində sevincini gizlətmədi. Gələcəyin bacarıqlı həkimi olması üçün səylə çalışacağını, tibbi biliklərə yiyələnəcəyini bildirdi. O təhsil aldığı məktəbin adını daim uca tutacağına bizi əmin etdi və sinif yoldaşları Əhməd Ələsgərovun Həştərxan Neft və Kimya Institutuna, Yusif Xananyayevin XXI əsr Moskva Dövlət Yəhudi Universitetinin hüquq fakültəsinə, Renat İfraimovun isə həmin universitetin kompüterçi - proqramçı fakültəsinə qəbul olduğlarını bildirdi.

Fərid SƏFƏROV

XÜSUSİ İSTEDADLAR SİNFİ QƏBUL İMTAHANLARINDA 100 FAİZLİK NƏTİCƏ GÖSTƏRİB

Quba şəhər Azad Məmmədov adına 2 nömrəli təbiət fənləri təmayüllü məktəbin xüsusi istedadlar sinfi ali məktəblərə qəbul imtahanlarında 100 faizlik nəticə göstərib. Belə ki, XI sinfi bitirən 23 şagirdin hamısı tələbə adını qazanıb.

Məzunlar arasında ən yüksək nəticəni Əli Əliyev əldə edib. Qəbul imtahanlarında 628 bal yığan Əli Azərbaycan Dövlət İqtisad Universitetinə qəbul olub. Ümumilikdə isə məzunların üçü 600, səkkizi 500, altısı isə 400 baldan yüksək nəticə əldə edib.

Şagirdlərin sinif rəhbəri Şəfəq Cəfərova bildirir ki, bu nəticə əvvəlcədən gözlənilirdi. Çünki xüsusi istedadlar sinfində Təhsil Nazirliyinin keçirdiyi imtahanda uğur qazanan şagirdlər oxuyurdu. Həmin şagirdlərə ənənəvi fənlərlə yanaşı, nitq mədəniyyəti və məntiq dərsləri də tədris olunub.

Quba şəhər Azad Məmmədov adına 2 nömrəli təbiət fənləri təmayüllü məktəbində ötən tədris ilində iki XI sinif fəaliyyət göstərib.

Ümumilikdə məktəbdə təhsilini başa vuran 45 şagirddən 40 nəfəri ali məktəblərə daxil olub.

ВСТРЕЧА ЖУРНАЛИСТОВ

В БАКУ НАЧАЛО РАБОТУ ЕЖЕГОДНОЕ ЗАСЕДАНИЕ ВСЕМИРНОЙ АССОЦИАЦИИ СОВЕТОВ ПЕЧАТИ

12 сентября в Баку начало работу ежегодное заседание Всемирной ассоциации советов печати.

Как сообщает АзерТАдж, в мероприятии принимают участие помощник Президента Азербайджанской Республики по общественно-политическим вопросам Али Гасанов, представители из примерно 20 стран Азии, Европы и Африки, а также таких международных организаций как ООН и Совет Европы, в том числе руководители местных медиа-структур и эксперты.

Председатель Совета печати Азербайджана Афлатун Амашев сообщил, что Всемирная ассоциация советов печати была создана в 1992 году. С тех пор и до настоящего времени проводятся мероприятия в странах-членах структуры, на которых обсуждаются проблемы журналистов и пути их решения, проводится обмен мнениями о тенденциях развития мировой медиа.

Участники заседания выступят с докладами о свободе слова и состоянии медиа в их странах, а также существующих проблемах.

На заседании выступил помощник Президента по общественно-политическим вопросам Али Гасанов.

ИНФОРМАЦИОННЫЙ БЛОК

НЕТАНЬЯХУ ПОЛУЧИЛ ПРИГЛАШЕНИЕ НА ОТКРЫТИЕ СИНАГОГИ В СЕВАСТОПОЛЕ

Главный раввин России Берл Лазар рассказал о том, что премьер-министру Израиля Биньямину Нетаньяху передано приглашение побывать на открытии синагоги в Севастополе.

В марте на встрече президента Российской Федерации Владимира Путина с представителями общественности Крыма и Севастополя главе государства рассказали о завершении строительства синагоги на месте, где во время Великой Отечественной войны происходили расстрелы евреев. Президент выступил с инициативой пригласить на открытие синагоги премьер-министра Израиля Биньямина Нетаньяху.

«ЯД ВА-ШЕМ» ОТКРЫЛ ОНЛАЙН-ВЫСТАВКУ, ПОСВЯЩЕННУЮ ВТОРОЙ МИРОВОЙ ВОЙНЕ

Всемирный центр памяти жертв Холокоста «Яд ва-Шем», расположенный в Иерусалиме, запустил новую онлайн-выставку, рассказывающую о жизни нескольких еврейских семей в первые месяцы Второй мировой войны, когда они еще не знали, что их ждет в недалеком будущем.

Как сообщает Times of Israel, на выставке «1939: еврейские семьи на грани войны» рассказывается о ходе войны с использованием документов эпохи Холокоста, фотографий и артефактов из архивов музея, многие из которых были подарены выжившими в Холокосте и семьями жертв Холокоста.

«Даже спустя 80 лет все еще трудно понять огромную разницу между жизнью евреев до войны и их трагической судьбой во время Холокоста», - подчеркивает исследователь музея «Яд Ва-Шем» и куратор выставки Йона Кобо.

ВЛАДИМИР ЗЕЛЕНСКИЙ РАССКАЗАЛ О ПЛАНАХ НА ЗАПУСК РЕФОРМ НА УКРАИНЕ

В ходе встречи с вице-президентом США Майком Пенсом в Варшаве президент Украины Владимир Зеленский заявил, что все главные реформы в стране будут запущены в первый год его президентства. Об этом сообщает РБК.

«Мы хотим запустить все главные реформы, которые ожидает общество на Украине, в течение первого года нашей власти», - сказал Владимир Зеленский, добавив, что ему «не хочется ждать пять лет».

Владимир Зеленский также поблагодарил Майка Пенса и правительство США за финансовую и военную помощь, которая оказывается Украине.

Изначально планировалось, что Владимир Зеленский встретится в Варшаве с президентом США Дональдом Трампом, который также должен был присутствовать в Варшаве. Но лидер США отменил свой визит, поскольку решил остаться в стране из-за урагана «Дориан», и вместо него в Польшу отправился Майк Пенс.

В АРХАНГЕЛЬСКЕ ПРОШЛИ ДНИ КУЛЬТУРЫ ИЗРАИЛЯ

С 8 по 14 сентября в Архангельске впервые прошли Дни культуры Израиля. На мероприятиях, заявленных в программе, посетители смогут ближе познакомились с многими аспектами культуры еврейского народа. Программа фестиваля опубликована на сайте местного еврейского культурного центра «Звезда Севера».

В здании синагоги начали работу две выставки, подготовленные Министерством иностранных дел Израиля и мемориальным комплексом «Яд Вашем».

«Выставка "Не по долгу службы, а по зову сердца" посвящена дипломатам разных стран, которые удостоились звания Праведников народов мира за личное мужество и человечность, проявленные ради спасения еврейских беженцев в годы Холокоста. На выставке "Еврейские беженцы из арабских стран" зрители познакомились с историческими и культурными особенностями еврейских общин на территории Ближнего Востока, а также с личными историями представителей этих общин, вынужденно ставших беженцами и приехавшими в Израиль .

В БАКУ УСТАНОВЯТ ПАМЯТНИК ГЕРОЮ-ЕВРЕЮ

В Нариманов ском районе Баку ведутся работы по монтажу памятника Национальному герою Азербайджана Альберту Агарунову.

Памятник будет установлен на улице, носящей имя Национального героя Альберта Агарунова. О том, когда состоится официальное открытие памятника, пока не сообщается.

Как ранее сообщалось, 25 января 2018 года глава Исполнительной власти города Баку подписал распоряжение о присвоении имени Альберта Агарунова одной из улиц в Нариманов ском районе Баку.

В Красной Слободе также увековечена память Национального Героя Азербайджана Альберта Агарунова.

ПРЕЗЕНТАЦИЯ АЗЕРБАЙДЖАНСКОГО ТУРИЗМА В ГЕРМАНИИ

10-12 сентября Азербайджанское бюро по туризму провело цикл мероприятий в Берлине, Гамбурге и Франкфурте.

Как сообщили АзерТАдж в Государственном бюро по туризму, в мероприятиях, состоящих из встреч и семинаров, приняли участие 7 туристических компаний и отелей туристического сектора Азербайджана, осуществляющих деятельность на немецком и европейском рынках.

В ходе мероприятий состоялась презентация туристического потенциала Азербайджана, участники будут подробно были проинформированы о туристических маршрутах, достопримечательностях и отелях страны.

ƏMƏKDAŞLIQ

AZƏRTAC VƏ İSRAİLİN TAZPİT AGENTLİYİ ƏMƏKDAŞLIQ BARƏDƏ ANLAŞMA MEMORANDUMU İMZALAYIBLAR

AzərTAc və İsrailin Tazpit xəbər agentliyi informasiya mübadiləsi və media texnologiyaları sahəsində əməkdaşlığa başlayır.

AzərTAc-ın İdarə Heyətinin sədri Aslan Aslanov ilə Tazpit agentliyinin təsisçisi və icraçı direktoru Amotz Ayal arasında Bakıda keçirilən görüşdə əlaqələrin qurulması və perspektivləri ətrafında geniş müzakirələr aparılıb. Azərbaycan və İsrail arasında sıx mədəni, tarixi əlaqələrin olduğunu deyən Aslan Aslanov ölkələrimizin hazırda bir çox sahələrdə uğurla əməkdaşlıq etdiyini bildirib. Qeyd olunub ki, bütün bunlar informasiya sahəsində də tərəfdaşlıq üçün böyük imkanlar açır. İlkin mənbədən məlumat mübadiləsinin iki ölkə arasında bütün istiqamətlər üzrə münasibətlərin daha da inkişafına töhfə verəcəyinə əminlik ifadə olunub.

AzərTAc ilə tərəfdaşlığa böyük önəm verdiklərini vurğulayan Tazpit agentliyinin icraçı direktoru Amotz Ayal bu əməkdaşlığın ölkələrimizi birbirinə daha yaxından tanıtmaq baxımından faydalı olacağını deyib. "Tazpit İsrailin ilk xəbər agentliyi olaraq ölkə həyatının bütün sahələri üzrə informasiya yayır. Yeni yaranmış media qurumu olmasına baxmayaraq, media texnologiyalarını fəal şəkildə tətbiq edir", - deyə Amotz Ayal bildirib.

Sonra Əməkdaşlıq barədə Anlaşma Memorandumunun imzalanma mərasimi olub. AzərTAc-ın İdarə Heyətinin sədri Aslan Aslanov və Tazpit agentliyinin təsisçisi və icraçı direktoru Amotz Ayal tərəfindən imzalanan sənəd xəbər, foto və video materialların mübadiləsini, kadrların hazırlığı və media texnologiyaları sahəsində əməkdaşlığı nəzərdə tutur. Razılaşmaya əsasən, agentliklər gündəlik xəbər mübadiləsi həyata keçirəcəklər.

Amotz Ayal AzərTAc-ın jurnalistləri ilə görüşdə bildirib ki, imzalanan sənəd Tazpit-in xarici xəbər agentliyi ilə ilk rəsmi əməkdaşlıq müqaviləsidir. O, ilk tərəfdaş kimi AzərTAc-ı seçmələrinin təsadüfi olmadığını deyib. Qeyd edib ki, AzərTAc-ın yüzdən çox agentliyi ətrafında birləşdirən Dünya Xəbər Agentlikləri Konqresinə, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatına sədrlik etməsi, nüfuzlu xəbər agentlikləri ilə tərəfdaşlıq əlaqələri qurması bu seçimi şərtləndirən amillərdir. Əsasən də buna İsrail və Azərbaycan arasında münasibətlərin yüksək səviyyəsi öz təsirini göstərib.

Görüşdə, həmçinin Azərbaycanda multikultural mühitdən, Azərbaycan və yəhudi xalqlarının burada tarixən sülh şəraitində yaşamasından, müasir media və jurnalistikanın inkişafı tendensiyalarından danışılıb.

СИНАГОГА АСТРАХАНИ ОТКРЫЛАСЬ ПОСЛЕ РЕКОНСТРУКЦИИ

Торжественное открытие синагоги и миквы после реконструкции состоялось в Астрахани. В церемонии принял участие главный раввин России Берл Лазар.

